**2009-cu il oktyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2009-cu il oktyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu" **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya Respublikası tərəfini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 oktyabr 2009-cu il
№ 560

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra «Tərəflər» adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi,

hər iki ölkə üçün kənd təsərrüfatının və ərzaq istehsalının əhəmiyyətini nəzərə alaraq,

hər iki ölkədə aqrar sahənin və kənd yerlərinin inkişafı, eləcə də kənd təsərrüfatı istehsalı və ərzaq sənayesi, kənd təsərrüfatı texnikası və insan resursları sahəsində qarşılıqlı əməkdaşlığın vacibliyini nəzərə alaraq,

kənd təsərrüfatı, ərzaq istehsalı və digər əlaqədar sənaye sahələrində hər iki ölkənin özəl sektoru arasında qarşılıqlı ticarət, investisiya və əməkdaşlıq əlaqələrinin dəstəklənməsi arzusunu bildirərək,

beynəlxalq miqyasda əməkdaşlığın möhkəmləndirilməsinə inamını bildirərək,

aşağıdakılar barədə anlaşmaya gəldilər:

Bənd 1
**Prinsiplər**

Tərəflər, qarşılıqlı anlaşılma və qarşılıqlı maraq əsasında kənd təsərrüfatı, ərzaq istehsalı və əlaqədar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə və inkişafına səy göstərəcəklər.

Bənd 2
**Əməkdaşlıq sahələri**

Tərəflər, aşağıdakı sahələrdə əməkdaşlığı təşviq edəcəklər:

a. kənd təsərrüfatı və kənd icmalarının inkişafı sahəsində təcrübə mübadiləsi;

b. daxili və beynəlxalq kənd təsərrüfatı siyasəti barədə məlumat mübadiləsi;

j. kənd təsərrüfatı və ərzaq texnologiyaları sahələrində məlumatların paylanması və qarşılıqlı maraq kəsb edən sahələrdə ekspert mübadiləsi;

d. kənd təsərrüfatı məhsullarının emalı, paylanması və marketinqi sahəsində məlumat mübadiləsi;

e. kənd təsərrüfatı ticarətinin və investisiyaların dəstəklənməsi məqsədilə hər iki ölkənin özəl sektorları arasında mübadilənin və əməkdaşlığın asanlaşdırılması;

f. hər iki ölkənin kəndli sahibkarlarının ərzaq istehsalı sahələrində təcrübə mübadiləsi;

g. Tərəflər arasında kənd təsərrüfatı sahəsində birgə tədbirlər;

h. kənd təsərrüfatı və aqro-ərzaq sektorunda birgə simpoziumlar, seminarlar, sərgilər və video-konfransların təşkili;

i. Tərəflərin qarşılıqlı razılığı ilə kənd təsərrüfatının digər sahələri üzrə mübadilə və əməkdaşlıq.

Bənd 3
**Kənd təsərrüfatı üzrə Əməkdaşlıq Komitəsi**

1. İkitərəfli əməkdaşlığı koordinasiya və inkişaf etdirmək məqsədilə, Tərəflər, kənd təsərrüfatı əməkdaşlığı üzrə Azərbaycan-Koreya Komitəsini (bundan sonra «Komitə» adlanacaq) təsis edəcəklər.

2. Komitə, tərəfləri təmsil edən Baş Direktor səviyyəsində iki həmsədrdən, həmçinin 2-ci bənddə göstərilmiş sahələr üzrə məsul olan hökumət və qeyri-dövlət təşkilat nümayəndələrindən təşkil olunacaq.

3. Tərəflər Komitənin toplantılarının təşkilati, kommunikasiya və inzibati məsələlərinə məsul əlaqələndirici şəxslər («əlaqə mərkəzləri») təyin edəcəklər.

4. Komitənin iclasları iki ildən bir növbə ilə Azərbaycan Respublikasında və Koreya Respublikasında keçiriləcək. Tədbirlərin keçiriləcəyi yer, tarix və gündəlik Tərəflərin əlaqə mərkəzləri arasında məsləhətləşmələr əsasında müəyyən ediləcək.

5. Komitənin iclaslarına qəbul edən Tərəfin həmsədri sədrlik edəcək və qəbul edən Tərəf iclasın keçirilməsinə inzibati dəstək verəcək.

6. İclasların rəsmi dili Azərbaycan, Koreya və ingilis dilləri olacaq. Komitə iclaslarının protokollarının mübadiləsi sənədlərin həmsədrlər tərəfindən imzalanmasından sonra baş verəcək. Sənədləşmə ingilis dilində aparılacaq.

7. Komitə çərçivəsində əməkdaşlığı sürətləndirmək məqsədilə ayrıca işçi qrupları yaradıla bilər.

Bənd 4

**Özəl sektorda əməkdaşlığın, ticarətin və investisiyaların təşviqi**

Tərəflər, kənd təsərrüfatı, ərzaq istehsalı və əlaqədar sahələrdə hər iki ölkənin özəl sektorları arasında ticarətin, investisiyaların və əməkdaşlığın dəstəklənməsi məqsədilə aşağıdakıları həyata keçirəcəklər:

a. kənd təsərrüfatında özəl bölmənin ticarət və investisiya imkanları barədə məlumat mübadiləsinin təşviqi;

b. özəl sektorda mübadilə və əməkdaşlığın asanlaşdırılması üçün başqa tədbirlərin görülməsi.

Bənd 5

**Maliyyələşmə**

1. Bu Memorandum hər iki ölkənin milli qanunvericilikləri və qaydaları çərçivəsində həyata keçiriləcək və Tərəflərin maliyyə vəsaitlərinin mövcudluğundan asılı olacaqdır.
2. Bu Memorandum çərçivəsində keçiriləcək bütün əməkdaşlıq tədbirləri üçün tələb olunan xərclər Tərəflər arasında qarşılıqlı razılaşmalar əsasında müəyyənləşdirilərək ödəniləcəkdir.

Bənd 6

**Mübahisələrin həlli**

Bu Memorandumun təfsiri və / və ya icrası ilə bağlı mübahisələr Tərəflər arasında məsləhətləşmələr yolu ilə həll ediləcək.

Bənd 7

**Əlavələr və düzəlişlər**

Memoranduma əlavə və düzəlişlər Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər.

Bənd 8

**Qüvvəyə minməsi, müddəti və sona çatması**

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və beş il müddətinə etibarlıdır. Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Memorandumun qüvvəsi növbəti beş illik müddətə uzadılır.

Memorandum iki əsl nüsxədə Bakı şəhərində, 08 oktyabr 2009-cu il tarixdə, Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsirində fikir ayrılığı yaranarsa ingilis dilindəki mətn əsas götürüləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının<br>Kənd Təsərrüfatı Nazirliyi<br>adından**<br>*(imza)* | **Koreya Respublikasının<br>Kənd Təsərrüfatı, Ərzaq,<br>Meşəçilik və Balıqçılıq Nazirliyi adından**<br>*(imza)* |